YENİ AZƏRBAYCAN
niazerbaycan.com
Azərbaycan xalqının milli sərvətidir
2022
6 dekabr
S.8.

# Azərbaycanda telefon rabitəsinin yaradılmasından 136 il ötür

## Rabitə və texnologiya işçilərinin bayramıdır...

**Bu gün rabitə və informasiya texnologiyaları işçilərinin peşə bayramıdır. Azərbaycan rabitəsi zəngin tarixi köklərə malikdir. Belə ki, Qazan xan hələ 1303-cü ildə Hülakülər dövlətini iqtisadi və siyasi böhrandan qurtarmaq üçün poçt sahəsində islahatlar həyata keçirib.**

1501-ci ildə Şah İsmayıl Xətai poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməlini qoyub. 1881-ci il dekabrın 6-da isə "Nobel qardaşları cəmiyyəti" tərəfindən Azərbaycanda rəsmi olaraq ilk telefon xətti istismara verilib. Beləliklə, XIX əsrin sonları, XX əsrin əvvəllərində Bakıda neft sənayesi ilə bərabər telefon rabitəsi də inkişaf edib, o dövr üçün geniş telefon şəbəkəsi yaradılıb.

**Ölkəmizdə İKT infrastrukturunun yaranması**

Şübhəsiz ki, Azərbaycanda rabitənin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikaya rəhbərliyinin birinci mərhələsini əhatə edən həmin dövrdə rabitənin inkişafı üzrə bir sıra mühüm qərarlar qəbul edilib. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı inkişaf etdirilib. Bakıda Dəmir yolu yanı poçtamt binasının, Rabitə evi, onlarla rayon mərkəzində rabitə qovşaqlarının və Respublika üzrə yüzlərlə poçt şöbəsi binasının inşası məhz həmin dövrə təsadüf edir.



Azərbaycan müstəqillik qazanandan sonra da Heydər Əliyev rabitə sahəsinə xüsusi diqqət göstərib. Onun diqqəti nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə qoyulub.

Azərbaycanda rabitənin inkişafı istiqamətində atılmış ən mühüm addımlardan biri Heydər Əliyevin 2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə 2003-2012-ci illəri əhatə edən Milli Strategiyanın" təsdiq edilməsi haqqında Sərəncamı olub. Ötən müddətdə respublikada informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində reallaşdırılan siyasət məhz bu strategiyanın üzərində qurulub.

Sürətlə inkişaf edən yeni texnologiyaların bir-birini əvəzlədiyi müasir dövrdə isə bu tərəqqi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha geniş vüsət alıb. 2005-ci ildə "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilib. Milli Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanıb, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Yüksək Texnologiyalar Parkı yaradılıb. 2006-cı ildə "Rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" dövlət başçısının Sərəncam imzalaması və Sərəncama uyğun olaraq hər il dekabrın 6-nın bu sahədə çalışanların peşə bayramı günü kimi təsis edilməsi göstərilən dövlət qayğısının daha bir təzahürü idi. Görülən işlərin nəticəsidir ki, Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir.

Azərbaycan son illərdə İKT-nin inkişaf göstəricilərinə görə dünyada lider yerlərdən birini tutur.

*Yeganə BAYRAMOVA*